***Dünya maliyyə institutlarının və təşkilatlarının hesabatlarında Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edən dövlətlər siyahısında ön yerlərdədir. Prezident İlham Əliyevin müəllifi olduğu iqtisadi islahatların uğurlu icrası nəticəsində ölkəmiz dünya iqtisadiyyatına önəmli təsir edə biləcək bir dövlətə çevrilmişdir. Prioritet məsələlərdən biri də odur ki, Azərbaycanda icra edilən iqtisadi layihələr ölkəmizin öz daxili imkanları hesabına həyata keçirilir. Nazirlər Kabinetinin 2021-ci ildəki fəaliyyəti haqqında hesabatla tanış olduqda ölkəmizin iqtisadi cəhətdən inkişafını görməmək mümkün deyil. Dövlət başçımızın Nazirlər Kabinetinin və hökumətin digər strukturlarının qarşısına qoyduğu əsas vəzifələrdən biri ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi olmuşdur.***

# Ölkəmizin iqtisadi inkişafı siyasi müstəqilliyimizi daha da möhkəmləndirir

Verilmiş tapşırıqların və görülmüş işlərin nəticəsidir ki, cari ilin dövlət büdcəsində qeyri-neft sektorundan gələn gəlirlərin payı 46 faizə çatdırılmışdır. Ötən il iqtisadiyyatımız 5 faizdən çox, qeyri-neft sektorunda sənaye istehsalı isə 20 faizə yaxın artmışdır. Neft məhsullarından gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi nəticəsində bu sahənin ixracı 2,7 milyard ABŞ dolları təşkil etməklə, 40 faizə yaxın artmışdır.



Pandemiyanın iqtisadi inkişafa vurduğu mənfi təsirlərdən və 2020-ci ildə şanlı qələbəmizlə bitən Vətən müharibəsindən sonra 2021-ci ildə iqtisadiyyatımız sürətli şəkildə böyük inkişaf yoluna qədəm qoydu. Ölkəmizdə



bütün sahələrdə iqtisadi artım müşahidə olunmuşdur. Strateji valyuta ehtiyatlarımız 2,4 milyard ABŞ dollarına yaxın artaraq , 53 milyard ABŞ dolları olmuşdur ki, bu da Azərbaycanda istehsal olunan məhsulların xarici dövlətlərə ixracının artdığını göstərir.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. 2021-ci ilin ilk günlərindən Cənub Qaz Dəhlizi vasitəsilə İtaliyaya, Yunanıstana, Bolqarıstana Azərbaycan qazı ixrac olunur. Yaxın vaxtlarda bu coğrafiya daha da genişlənəcək. Bu da ölkəmizin dünyada iqtisadi-siyasi mövqeyini möhkəmləndirməklə yanaşı, valyuta ehtiyatlarımızın artmasına səbəb olacaq. Artıq bir sıra böyük Avropa dövlətləri Azərbaycanı özlərinə etibarlı və müttəfiq ölkə hesab edirlər. 2021-ci ildə ölkəmizdə elektrik enerjisi istehsalı ilə əlaqədar böyük layihələr həyata keçirilmişdir.

Bu gün Azərbaycan dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edir. Prezident İlham Əliyevin iqtisadi strategiyasının reallaşdırılmasının nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı sürətlə və dayanıqlı şəkildə inkişaf edir. Hesabatdan göründüyü kimi, hökumət, həmçinin ölkənin iqtisadiyyatı ilə məşğul olan bütün qurumlar dövlət başçımızın onların qarşısına qoyduğu vəzifələri layiqincə yerinə yetiriblər.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı***